# İlk Avropa Olimpiya Oyunları Azərbaycanda keçiriləcək

Respublikamızdakı dayanıqlı siyasi sabitlik, güclü sosial-iqtisadi dinamizm, müasir infrastruktur ilk Avropa Olimpiya Oyunlarının 2015-ci ildə Bakıda kezirilməsi barədə qərarın qəbul olunmasına şərait yaradıb

«Dövlət siyasətinin nəticəsidir ki, bu gün biz Azərbaycanı dünya birliyinə idman dövləti kimi təqdim edə bilirik. Təsadüfi deyildir ki, 2012-ci il Azərbaycanda «İdman ili» elan edilmişdir. Bu, özlüyündə bir göstəricidir».

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Sonuna yaxınlaşdığımız 2012-ci il Azərbaycanın ictimai-siyasi, iqtisadi-sosial həyatında bir sıra mühüm hadisələrlə yadda qaldı. Dünyanın ən nüfuzlu sənət bayramlarından olan «Eurovision» mahnı müsabiqəsinin Bakıda keçirilməsi, dünya ölkələrinin xüsusi önəm verdiyi qitələrarası layihə - TANAP-la bağlı sazişin imzalanması, müxtəlif sahələrdə əlamətdar hadisələr yola saldığımız ilin əsas göstəriciləri hesab oluna bilər. Bunların sırasında 2012-ci ilin ölkəmizdə «İdman ili» elan olunması və respublikamızın idman sahəsində ən yüksək nailiyyətlərə imza atmasını da xüsusi qeyd etmək olar. «İdman ili» Azərbaycanın tarixində yeni bir səhifənin açılması, idman sektorunda yeni mərhələnin başlanğıc ili kimi yadda qalacaq.

***«İdman ili»ndə yeni tarixi səhifə***

Prezident İlham Əliyev 2012-ci il yanvarın 16-da tarixi sərəncam imzalamaqla qarşıya qoyulan hədəflərə nail olmaq inamını göstərmiş oldu. Prezidentin bu əminliyi il ərzində özünü tam doğrultdu və Azərbaycan beynəlxalq idman yarışlarında böyük nəticələr əldə etdi. Dünya və Avropa çempionatlarında, rəsmi beynəlxalq yarışlarda, ən nəhayət, London Olimpiadasında respublikamızın yüksək göstəricilər qazanması 2012-ci ilin «İdman ili» kimi təsadüfi seçilmədiyini təsdiq etdi. Ölkəmizin idmançıları London Olimpiadasında rekord sayda -10 medal qazanmaqla Azərbaycanın dünya Olimpiya hərəkatındakı mövqeyini bir qədər də möhkəmləndirdilər.

London Yay Olimpiya Oyunlarında 10 medal qazanan pəhləvanları bir daha Azərbaycan idmanının, ölkə güləşinin gücünü dünyaya nümayiş etdirdilər.

Respublikamızın London zəfərinə dünya idman ictimaiyyətinin, beynəlxalq idman strukturlarının nüfuzlu xadimlərinin, məşhur məşqçilərin, dünya və Olimpiya çempionlarının münasibəti birmənalı oldu: Azərbaycan idmanın yüksək səviyyədə inkişaf etdiyi bir ölkədir. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqqenin fikri isə daha konkret, lakonik idi: «Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək olmalıdır. Bu sahədə həyata keçirilən siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda idmanla məşğul olmaq böyük bir amilə çevrilib».

***Avropadan böyük etimad və etibar...***

Təbii ki, Azərbaycanın idman ölkəsi kimi şöhrətinin artması beynəlxalq idman təşkilatlarının diqqətindən kənarda qala bilməzdi. Respublikamızdakı dayanıqlı siyasi sabitlik, güclü sosial-iqtisadi dinamizm, müasir infrastruktur aparıcı idman təşkilatlarının nəzərindən yayınmadı, dünya çempionatları və beynəlxalq turnirlərdə yüksək təşkilatçılığına, müasir idman komplekslərinin əlverişli vəziyyətinə görə seçilən Azərbaycana dünyanın daha bir nəhəng Olimpiya yarışı - Avropa Olimpiya Oyunlarının keçirilməsi etibar edildi. Avropa Olimpiya Komitəsi ilk Avropa Olimpiya Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi barədə qərar qəbul verdi.

Avropa Olimpiya Komitəsinin bu tarixi qərarını Azərbaycana dünya Olimpiya hərəkatında öz yeri olan bir ölkə kimi verilmiş yüksək qiymət kimi qəbul etmək lazımdır. Komitə bu miqyasda beynənxalq tədbirin keçirilməsində bir neçə mühüm ictimai-sosial faktoru nəzərə alıb. İlk növbədə, Olimpiya Oyunlarının keçiriləcəyi ölkənin siyasi sabitlik göstəriciləri, sosial şəraiti, iqtisadi imkanları və idman infrastrukturu Avropanın ali Olimpiya qurumunun başlıca önəm verdiyi əsas məsələlərdəndir. Respublikamız belə yüksək etimada indiyədək bir sıra mötəbər beynəlxalq tədbirləri ən yüksək səviyyədə təşkil etməklə nail olub. İdmanın müxtəlif sahələri üzrə ölkəmizdə Avropa və dünya çempionatları baş tutmuşdur. 9-13 may 2012-ci il tarixlərində keçirilmiş

beynəlxalq velotur, 16 ölkənin futbol komandalarının iştirakı ilə təşkil edilmiş FİFA U-17 qadınlararası dünya çempionatı Azərbaycanın çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ənənəsinə sadiqliyindən xəbər verirdi.

İdmanın inkişafını, Olimpiya hərəkatının geniş vüsət almasını ölkənin ümumi inkişafının bir göstəricisi kimi dəyərləndirmək lazımdır. Azərbaycan artıq dünyada, sadəcə, zəngin neft-qaz ölkəsi kimi deyil, həm də sivilizasiyalararası dialoqa mühüm töhfə verən, beynəlxalq humanitar forumlara ev sahibliyi edən, tolerantlığın mərkəzinə çevrilən bir ölkə statusunda qəbul olunur. Respublikamız regionun təhlükəsizliyinə zəmanət yaradan bir güc mərkəzi kimi möhkəmlənib. İqtisadi və sosial həyatın müasir səviyyəsi, davamlı modernləşdirmə tendensiyası, yüksək mədəni ənənələrin formalaşması və inkişafı, beynəlxalq səviyyəli humanitar aksiyaların, forumların, idman yarışlarının ənənə halını alması ölkəmizin dünya sivilizasiyasına mühüm töhfə verdiyini nümayiş etdirir.

***Üfüqlər aydın görünür***

Avropa Olimpiya Oyunları kimi beynəlxalq tədbirin keçirilməsi üçün Azərbaycanın seçilməsi qitə ölkələri içərisində inkişaf və sabitlik göstəricilərinə görə ən əlverişlı dövlətlərdən biri olan ölkəmizə qlobal səviyyədə səmimi inamın, etibarın təsdiqi və təntənəsidir. Bu inam və etibarın arxasında isə məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Azərbaycan müstəqillik yolları ilə irəlilədiyi qısa müddət ərzində dünya idmanı tarixində öz sözünü deyib, Olimpiya Oyunları salnaməsində yeni səhifə yazıb. Prezident İlham Əliyevin əvəzsiz xidmətləri sayəsində Azərbaycan beynəlxalq idman aləmində layiqli yer qazanıb və Olimpiya ölkəsinə çevrilib.

Son illər ölkəmizin iqtisadi cəhətdən inkişaf etməsi, bütün sahələr kimi, idmana da öz müsbət təsirini göstərməkdədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: «Azərbaycan dövləti Azərbaycan idmanının inkişafı üçün konkret addımlar atmışdır. Bu gün də bu siyasət davam etdirilir». Hazırda Azərbaycada 30-dan çox müasir Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. İdman bazaları, demək olar ki, ölkənin bütün bölgələrini əhatə edir. Davamlı və sistemli tədbirlər Azərbaycan iqtisadiyyatının ortamüddətli dövrdə inkişafını sürətləndirməklə yanaşı, idmanın da inkişafında yeni naliyyətlərin əldə olunacağını şərtləndirir.

Bu, son deyil, Azərbaycanın dünya idman coğrafiyasında ilbəil strateji nüfuzunun artması digər beynəlxalq yarışların keçirilməsi üçün də əla fürsət yaradır. Respublikamız 2016-cı il Dünya Şahmat Olimpiadasına ev sahibliyi edəcək və digər mötəbər beynəlxalq turnirlərin keçirilməsi üçün də ən iddialı ölkə hesab olunur. Yaxın vaxtlarda inşası başa çatdırılacaq ən möhtəşəm idman layihələrindən biri - Bədii Gimnastika Kompleksi Azərbaycanın bu idman növü üzrə də beynəlxalq idman tədbirlərinə ev sahibliyi etməsinə imkan verəcək. Tikintisi 2015-ci ilədək başa çatdırılacaq 65 min nəfərlik Bakı Olimpiya Stadionu respublikamızın idman və mədəniyyət infrastrukturunun ən möhtəşəm nümunəsinə çevrilərək regionda nəhəng idman obyekti kimi xüsusi yer tutacaq.

Elbrus CƏFƏRLİ